*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 396-401*

https://doi.org/10.62837/2026.1.396

**Azərbaycan Tibb Universiteti**
**Dosent MƏMMƏDOVA ELNARƏ ADIL QIZI**
**emenmmedova69@mail.ru**
**ORCİD:** 0009-0007-1231-9229
**Müəllim İMANOVA İRADƏ İSA QIZI**
**iimanova@amu.edu.az**
**ORCİD:** 0009-0008-2147-7007

# ƏHMƏD CAVADIN AZƏRBAYCANÇILIQ İDEYASI VƏ I TÜRKOLOJI QURULTAYDA ROLU

**Açar sözlər:** *poeziya, dil, mədəniyyət, ortaq dil, poetik dil, milli kimlik*

## X Ü L A S Ə

Məqalədə 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayın elmi və ideoloji əhəmiyyəti, o cümlədən Əhməd Cavadın Azərbaycançılıq ideyaları işıqlandırılır. Qurultay, türkdilli xalqların ortaq dil, əlifba və mədəni birlik məsələləri, mədəniyyət və tarix anlayışlarının elmi müstəvidə müzakirə olunduğu ilk böyük beynəlxalq forum kimi tarixə düşmüşdür. Qurultayda əsas diqqət türklər arasında dil birliyinin yaradılması, latın qrafikasına keçid, etnoqrafik və folklor araşdırmaların koordinasiyası məsələlərinə yönəlmişdi. Əhməd Cavadın poeziyasında ifadə olunan milli kimlik və türkçülük ideyaları, bu qurultayın əsas ideoloji xətti ilə üst-üstə düşür. Əhməd Cavadın yaradıcılığı həmin dövrün milli ideoloji fonunu aydın şəkildə əks etdirirdi. Onun Azərbaycançılıq ideyası - milli kimlik, türkçülük və müstəqillik düşüncələri ilə sıx bağlı idi. Əhməd Cavadın poeziyasında ifadə olunan türk birliyi, azadlıq və mədəni dirçəliş arzuları, Türkoloji Qurultayda səslənən elmi çağırışlarla ideoloji baxımdan üst-üstə düşür. Bu məqalədə Qurultay və Əhməd Cavadın ideyaları arasında əlaqə yaradılır və onların müasir türk kimliyinin formalaşmasında rolu göstərilir.

**ELNARA MAMMADOVA**
**İRADA İMANOVA**

## S U M M A R Y

**Keywords***: poetry, language, culture, common language, poetic language, national identity*

This article explores the scientific and ideological significance of the First Turkology Congress held in Baku in 1926 and examines its connection with the Azerbaijani national ideology of Ahmad Javad. The Congress marked a milestone as the first major international forum where Turkic peoples discussed their common language, culture, and history in an academic framework. Key issues included the unification of Turkic languages, adoption of the Latin alphabet, and coordination of

ethnographic and folkloric research. Ahmad Javad's literary work reflects the ideological atmosphere of the time, centered around Azerbaijani identity, Turkism, and the aspiration for independence. His poetry expressed ideas of Turkish unity, cultural revival, and national freedom — themes that align ideologically with the objectives of the Congress. The article draws a connection between the Congress's scientific goals and Javad's ideological vision, highlighting their collective contribution to shaping modern Turkic identity. Türkoloji qurultaylar XX əsrdən etibarən Türk dilləri və mədəniyyətinin elmi tədqiqi, dil və ədəbiyyat tarixi, etnoqrafiya, folklor, mədəni əlaqələr və ortaq irsin müzakirəsi üçün beynəlxalq səviyyədə toplanan elmi forumlardır. Bu qurultaylar türk dünyasının müxtəlif coğrafiyalarından alimləri, tədqiqatçıları və dilçiləri bir araya gətirərək Türkoloji tədqiqatların inkişafına imkan yaradır. XXI əsrdə Türkoloji tədqiqat sahəsi yeni beynəlxalq konqres və simpoziumlar vasitəsilə daha geniş coğrafiyada davam etdirilir. 1926-cı ildə Bakıda kecirilən Birinci Türkoloji Qurultay isə bu sahədə ilk böyük mərhələ olmuş, latın qrafikasına keçid kimi mühüm qərarlar müzakirə edilmişdir. Bu qurultay türk xalqlarının tarixi, dili, ədəbiyyatı, etnoqrafiyası və mədəniyyəti üzrə mühüm qərarların müzakirə olunduğu ilk beynəlxalq forum kimi tarixə düşmüşdür. Qurultayda türk xalqlarının latın qrafikasına keçid məsələsi müzakirə edilmişdir ki, bu qərar sonradan 1939-cu ildə ləğv edilmişdir. Qurultay Türkoloji tədqiqatların mərkəzləşdirilməsi, türk dilləri arasında ortaq tədqiqat sahələrinin müəyyənləşdirilməsi üçün mühüm rol oynayıb.

Qurultayın keçirildiyi dövr Azərbaycanın milli oyanış mərhələsi ilə üst-üstə düşür və bu ideoloji fonda Əhməd Cavad kimi aydınların Azərbaycançılıq ideyaları geniş yayılmışdı. Qurultay 26 fevral – 6 mart tarixlərində Bakı şəhərində keçirilmiş və Sovet İttifaqının müxtəlif respublikalarından, eləcə də xarici ölkələrdən 130-dan çox alim iştirak etmişdir. Qurultayın əsas məqsədləri bunlar idi:

- Türk xalqlarının dil və əlifba məsələlərinin həlli
- Folklor, etnoqrafiya və tarix üzrə məlumat mübadiləsi
- Latın qrafikasına keçid məsələsinin müzakirəsi

Qurultayın qərarları türk dünyasında müasir türkoloji elminin əsasını qoydu.

Azərbaycan nümayəndələri arasında görkəmli dilçilər və ədəbiyyatşünaslarla yanaşı, mədəniyyət xadimləri də vardı. Qurultayda milli identiklik və ortaq türk kimliyinin qorunması məsələləri xüsusilə önə çıxırdı. Bu baxımdan, Əhməd Cavad kimi milli ideologiya daşıyıcılarının düşüncələri həmin dövrün ideoloji fonunu formalaşdırırdı. Əhməd Cavad XX əsrin əvvəllərində Azərbaycan milli ideologiyasının əsas simalarından biri idi. Onun Azərbaycançılıq ideyası üç əsas sütun üzərində qurulmuşdu:

- Milli kimlik: Azərbaycan türkünün tarixini, mədəniyyətini və dilini qorumaq
- Türkçülük: Bütöv türk dünyası ilə birliyin zəruriliyi

- İslam və humanizm: İslam dəyərlərinə söykənən humanist yanaşma

Azərbaycanı təmsil edən ədəbi-ictimai xadimlər sırasında yer alan Əhməd Cavad çıxış və müzakirələrində Türk xalqları arasında ortaq dil, terminologiya və mədəni yaxınlaşma ideyasını dəstəkləyən mövqedə idi. O, milli ruhlu mövqeyi ilə tanınırdı. Əhməd Cavad Türkoloji Qurultayda təşkilatçı deyil, lakin türkçülük, dil birliyi və mədəni oyanış ideyalarını açıq şəkildə dəstəkləyən fəal ziyalı nümayəndə kimi mühüm rol oynamışdır.Əhməd Cavadın "Çırpınırdı Qara Dəniz", "Azərbaycan" kimi şeirlərində milli ruh, türk birliyi və azadlıq ideyaları güclü şəkildə təzahür edir. Onun bu ideyaları 1926-cı il qurultayının atmosferi ilə uyğunluq təşkil edirdi. Qurultayda dil birliyi və milli mədəniyyətin qorunması kimi məsələlər Cavadın poeziyasında poetik dillə ifadə olunan ideალların elmi müstəvidə təsdiqidir. Azərbaycan Dövlət Himninin müəllifi Əhməd Cavadın yaradıcılığında istiqlalçılıq ideyaları əsas yer tutur. 1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümuriyyətinin yaranması Əhməd Cavadın yaradıcılığında mühüm rol oynamışdır. Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan, bu yolda "xalq düşməni" damğası ilə güllənənən Əhməd Cavad, zamanla xalqının qəhrəmanı kimi yenidən tarixin səhnəsində öz yerini, layiq olduğu zirvəni tutdu. Cümhuriyyət nəğməkarı, vətənini, millətini, xalqını sevən Əhməd Cavad qəlbindki vətən sevgisini, azərbaycançılıq məfkurəsini gizlədə bilməmiş, Leyli kimi pünhan ağlamamış, gizlicə həsrət çəkməmiş, dövrün yad təsirlərindən çəkinməyərək, vətənə, xalqa olan sevgisinin sərhəd tanımadığını, qorxu bilmədiyini, hər misrası ilə vətən aşiqi, vətən Məcnunu olduğunu geniş, təbii və poetik ifadələrlə əks etdirmişdir. Əhməd Cavad Azərbaycan himninin sözlərini elə qələmə alır ki, elə ilk misralardan bu xalqın, bu millətin kimliyini, bütövlüyünü, əyilməzliyini, mərdliyini hər kəlməsindən görmək olur, duymaq olur.

***Azərbaycan! Azərbaycan!***
***Ey qəhrəman övladın şanlı Vətəni!***
***Səndən ötrü can verməyə cümlə hazırız!***
***Səndən ötrü qan tökməyə cümlə qadiriz!***
***Üçrəngli bayrağınla məsud yaşa!***

O, Azərbaycan bayrağını kamilləşmə dövrünü keçən "Azərbaycançılıq" ideologiyasının qibləgahı və yol göstərəni kimi göstərir, bu bayrağın iman və inam yeri olduğunu bildirir. Şair:

***Təmiz al alnındakı tozu, torpağı,***
***Haqq üçün açdığın əllərinlə sil!***
***Qalxıb, bir də enməz elin bayrağı,***
***O sənin, o mənim əlimdədir, bil!*** – deyə bütün vətəndaşları bu bayraq altında Azərbaycanın və Azərbaycançılığın əsgəritək birləşməyə dəvət edir.

Görkəmli Azərbaycan şairi, Azərbaycanın Dövlət Himninin müəllifi Əhməd Cavadın şeirlərində millətin azadlıq eşqi, vətən sevgisi tərənnüm edilirdi. 1918-ci

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 396-401*

ilin mayın 28-də Azərbaycan Xalq Cümuriyyətinin yaradılması Ə.Cavadın yaradıcılığında mühüm rol oynadı. O, Azərbaycan Cümuriyyətinin, Azərbaycan bayrağının, Azərbaycanı xilasa gəlmiş türk əsgərini şeirlərində böyük sevgi və məhəbbətlə tərənnüm edirdi. Zaman-zaman Azərbaycan istiqlalı müstəqilliyə qədər uzun bir yol keçib gəlmişdi. Əhməd Cavadın bir çox şeirləri bizim milli himnimizdir. Türkiyədə keçirilən "Birinci Millətlərarası Böyük Azərbaycan Konqresi" məhz Əhməd Cavadın məşhur misraları ilə yekunlaşmışdır. Əhməd Cavad poeziyasında milli düşüncə təkcə Azərbaycan və Azərbaycançılıqla məhdudlaşmamış, xüsusilə "Çırpınırdı Qara dəniz", "İstanbul", "Şəhidlərə", "Türk ordusuna" kimi şeirlərində türk sevgisi və Turançılıq da ifadə olunmuşdur.

Onun 1914-cü ildə qələmə aldığı "Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına" adlı şeirinə dahi bəstəkarımız Üzeyir Hacıbəyli təsirli və yaddaqalan musiqi bəstələmişdir:

***Çırpınırdı Qara dəniz***
***Baxıb Türkün bayrağına!***
***"Ah!" deyərdim, heç ölməzdim***
***Düşə bilsəm ayağına!***
***Ayrı düşmüş dost elindən,***
***İllər var ki, çarpar sinən!***
***Vəfalıdır gəldi, gedən,***
***Yol ver Türkün bayrağına.***

45 il ömür sürən, qəlbi vətən sevgisi ilə dolu olan şairin poeziyasında Azərbaycanın istiqlalına, bayrağına, Azərbaycanı xilasa gəlmiş türk ordusuna və türkçülük idealına böyük sevgi və tükənməz məhəbbət duyulur. Ə.Cavad Azərbaycan Cümhuriyyəti ilə Türkiyə arasında ilk əlaqə yaradanlardan biri olub. 1918-ci ildə Bakıya gələn türk ordusunu salamlıyıb, onların şərəfinə "Türk ordusuna" şeirində qardaş ölkənin xilaskar ordusu Turandan rus işğalçılarını qovduqları üçün alqışlanır:

***Ey şanlı ölkənin şanlı ordusu,***
***Unutmam Qafqaza gəldiyin günü!***
***Gəlirkən qovmağa Turandan rusu,***
***Ayağını Qara dəniz öpdümü ?!***

Ədəbiyyatşünas Əflatun Saraclı bu dövrdə yazıb yaradan gənc istiqlalçı şairlərin yaradıcılığından bəhs edərək yazmışdır: "Cümhuriyyət dönəmi gənc şairləri Azərbaycanı, Qafqaz türklərinin bir hissəsi sayırdılar. Azərbaycandan danışanda dünya türklərini də unutmurdular, türk dünyasından danışanda doğma Azərbaycanı həmişə öndə görürdülər. M.Ə.Rəsulzadə 1922-ci ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan Cümhuriyyəti" kitabında Ə.Cavadı bir sənətkar kimi yüksək qiymətləndirilmiş, onun adını S.Ə.Şirvani, M.Ə.Sabir, H.Cavidlə bir sıradan çəkərək göstərmişdir ki, Azərbaycan oxucusu Sədini, Tolstoyu və dünyanın digər məşhur ədiblərini anlamaq üçün əvvəlcə bu adı çəkilən öz sənətkarlaırının yaradıcılığını

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 396-401*

öyrənməlidir. Ə.Cavad istedadlı tərcüməçi kimidə fəaliyyət göstərib. O, fars, ərəb, rus, gürcü və ləzgi dillərini mükəmməl bilib. O, Şekspirin "Otella", Şota Rustavellinin "Pələng dərisi geymiş pəhləvan", Puşkinin, Qorkinin və digər sənətkarların əsərlərini dilimizə çevirmişdir. Akademik B.Nəbiyev Əhməd Cavad yaradıcılığından bəhs edərək yazır: "Əhməd Cavad Azərbaycan poeziyasının özünəməxsus ədəbi taleyi olan nadir simalarından biridir". İstiqlal şairi "pantürkizimdə" günahlandırılaraq 1937-ci ildə həbs edilir. Şairin ən böyük "günahı" kimi onun türk ədəbiyyatı ilə maraqlanması, Türkiyədə əsər çap etdirməsi göstərilirdi. Nəsiman Yaqublu şairə həsr etdiyi məqaləsində yazır: Ə.Cavadın 1930- cu ilin aprelində yazdığı "Kür" əsəri də sovet tənqidçilərini narahat etdi. Əsərdə səslənən

***"Əyil, Kürüm, əyil, keç!***
***Meydan sənin deyil, keç!"*** misralarına siyasi xarakter verdilər.

Fiziki işgəncələrə məruz qalan şairi 1937-ci ilin oktyabrın 12-dən 13-nə keçən gecə güllələdilər. Həyat yoldaşı Şükriyyə xanımı Qazaxıstana sürgünə göndərdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev istiqlal şairi Əhməd Cavadın anadan olmasının 130 illiyinin qeyd edilməsi haqqından sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, "Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikr tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir.

Sənətkarın əsərləri ölkəmizdə olduğu kimi, həm də qardaş Türkiyədə oxunur və sevilir, həyatı və yaradıcılığı haqqında əhatəli məqalələr çap olunur. Əhməd Cavadın Ankara Türk Muzeyi və Parkında heykəli ucaldılıb.

1926-cı il Bakı Türkoloji Qurultayı təkcə elmi bir hadisə olmayıb, həm də milli ideoloji proseslərin tərkib hissəsi idi. Əhməd Cavad kimi aydınların Azərbaycançılıq və türkçülük ideyaları bu qurultayın ruhuna uyğun gəlirdi. Bu baxımdan, qurultay həm Azərbaycan milli kimliyinin, həm də ümumtürk ideyasının ifadəsi olmuşdur.Azərbaycan xalqının istiqlalını ən böyük nemətlərdən biri hesab edən unudulmaz sənətkarın əsərləri bu gün aktuallığını saxlayır və türk xalqlarını mənəvi birliyə səsləyir. Milli marş, dövlət himni və bayraq şeirlərilə məşhurlaşmış Əhməd Cavad yaradıcılığı yeni nəsillər üçün milli istiqlal kitabı və vətəndaşlıq nümunəsidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Hacıyev, Ə. (2006). Azərbaycan Türkologiyası tarixi. Bakı: Elm;
3. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1991;
4. Məmmədli, A. (2010). "1926-cı il Türkoloji Qurultayı və milli ideoloji tendensiyalar", Azərbaycan Tarixi, №3;

6. Dadaşzadə, C. (1998). Əhməd Cavad: Həyatı və yaradıcılığı. Bakı: Maarif;
7.Ə.Əsgərli. İstiqlal şairi. Kaspi qəzeti. 19 iyun 2017;
8. Qarayev Y. seçilmiş əsərləri. 5 cilddə, 5 cild, Bakı "Elm" 2015;
9. Saracalı Ə. Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində Bakı, "Elm", 2007;
10. Nəbiyev B. Əhməd Cavad. Bakı, "Ozan" nəşriyyatı 2004;
11. Yaqublu N. Azərbaycanın istiqlal şairi Əhməd Cavad;
12. Ankarada Əhməd Cavadın heykəli ucalıb. "525-ci qəzet", 5 may 2022-ci il.

**Rəyçi: dosent S.Ə.Kadiyeva**